**Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB)**
**İdarə Heyətinin sədri Ahmet Erentokun**
**ÇIXIŞI**

**Türkiyə Cumhuriyyətinin Prezidenti cənab Abdulla Gülün dövlət və qeyri-dövlət sektor nümayəndələrindən ibarət olan heyət ilə Bakıya səfəri**

7 noyabr 2007-ci il, Bakı, Azərbaycan

**Hörmətli görüş iştirakçıları!**

Azərbaycan – Türkiyə İş Adamları Birliyi (ATİB) 2004-cü ildə yaradılmışdır. 2002-ci ildə təsis edilmiş Türk İş Adamları Dərnəyinin (TİAD) hüquqi varisi olan ATİB Azərbaycan, Türkiyə və digər ölkələrdən olan iş adamlarını bir araya gətirməklə, onların səylərinin Azərbaycanın iqtisadi potensialının gücləndirilməsinə yönəldilməsi və regionda sinerji yaradılması istiqamətində fəaliyyət göstərir.

ATİB Azərbaycanı regionun qabaqcıl ölkəsi kimi və dünyanın inkişaf etmiş ölkələri sırasında görür və bunun üçün, öncəliklə Azərbaycan və Türkiyə arasında, daha sonra isə Azərbaycan və digər ölkələr arasında iqtisadi, sosial və mədəni əlaqələrin inkişaf etdirilməsinə öz töhfəsini verməkdədir.

ATİB üzv təşkilatların maraqlarından çıxış etməklə, öz səylərini:

- Azərbaycanı Türkiyə və digər ölkələrdə tanıdaraq, eləcə də Türkiyə, Azərbaycan və digər ölkələrin sahibkar assosiasiyaları ilə əməkdaşlıq etməklə, xarici sərmayə qoyuluşunun artırılmasına,
- Azərbaycan və Türkiyə arasında sənaye, ticarət, xidmət və digər iqtisadi münasibətlərin inkişaf etdirilməsinə,
- Azərbaycanda Türk iş adamının imicinin qüvvətləndirilməsinə,
- Azərbaycanda və digər xarici ölkələrdə ATİB-in məqsədlərinə uyğun fəaliyyət göstərən fondlar, ictimai birliklər və digər qurumlarla əməkdaşlıq etməklə birgə fəaliyyətlərin təşkil edilməsinə yönəltmişdir.

Azərbaycan Türkiyə İş Adamları Birliyi (ATİB) işgüzar dairələrin maraqlarını təmsil edən ictimai birlik olmaqla qurulduğu tarixdən etibarən ötən müddət ərzində bir çox nailiyyətlərə imza atmışdır. Ekspertlərin fikrincə, ATİB Azərbaycanın və eyni zamanda Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin iş adamlarını birləşdirən ən nüfuzlu birliklərindən biridir. ATİB-ə və

onun rəhbər orqanlarına daxil olan iş adamları sahibkarlıq ictimaiyyətinin səylərini ölkənin və xalqın maraqları ətrafında birləşdirmək istiqamətində bir çox işlər görürlər.

Hazırda 107 təşkilat ATİB-in üzvüdür. Onların 39,6%-i yerli sərmayəli, 34%-i Türk və xarici sərmayəli, 26,4%-i isə birgə müəssisələrdir. ATİB üzvlərinin 44%-i emal və ticarət, 27%-i inşaat, 20%-i xidmət, 11%-i maliyyə və 5%-i telekommunikasiya sektorlarında fəaliyyət göstərir.

Hazırda ATİB üzvü olan şirkətlərin nizamnamə kapitalı təxminən 750 milyon dollar təşkil edir. Şirkətlərdə 30 min nəfərdən çox insan çalışmaqdadır. ATİB üzvlərinin Azərbaycanın qeyri-neft sektoruna yatırdıqları investisiyalar 3 milyard dollara yaxındır.

**Hörmətli xanımlar və cənablar!**

Bildiyiniz kimi, Azərbaycan iqtisadiyyatı hazırda yüksək templərlə inkişaf etməkdədir. İqtisadi sahədə ötən dövrdə aparılan islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər ölkədə iqtisadi aktivliyin inkişafına münbit şərait yaradır. Azərbaycan üçün, Azərbaycan - Türkiyə əlaqələri üçün eləcə də region və dünya üçün çox böyük əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri və Bakı-Tbilisi-Qars dəmir yolu layihələrinin reallaşdırılması bu inkişafı daha da sürətləndirməkdədir.

Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas istiqamətlərindən biri investisiya mühitinin daha da yaxşılaşdırılmasından, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsindən, yeni iş yerlərinin açılmasından və nəticə etibarilə əhalinin maddi rifahının yaxşılaşdırılmasından ibarətdir. Kiçik və orta sahibkarlıq Azərbaycan Respublikası iqtisadiyyatının artırılması və diversifikasiyası üçün ən yaxşı imkandır. Azərbaycan hökumətinin həyata keçirdiyi iqtisadi siyasət hazırda sahibkarlığa dövlət himayəsinə, eləcə də bazar iqtisadiyyatının tələblərinə uyğun təsisatların yaradılması və onların səmərəli fəaliyyətinin təmin edilməsinə yönəldilmişdir.

Dövlət tərəfindən kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsi istiqamətində ardıcıl tədbirlər bir çox irimiqyaslı siyasət sənədləri vasitəsilə həyata keçirilir. Bunlara:

- "Azərbaycanda Kiçik və Orta Sahibkarlığa Dövlət Yardımı Proqramı (1997-2000-ci illər)",
- "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)",

- "Azərbaycan Respublikasında maşınqayırma sənayesinin inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)",
- "Azərbaycan Respublikasında aqrar bölmənin inkişafının Dövlət Proqramı (2002-2006-cı illər)",
- "Azərbaycan Respublikasında 2002-2005-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı",
- "Azərbaycan Respublikasında Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Programı (2003-2005-ci illər)",
- "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Programı (2004-2008-ci illər)" və s. misal göstərmək olar.

Sözügedən proqramların icrası nəticəsində ötən dövrdə sahibkarlığa dövlət maliyyə köməkliyi mexanizmi yaradılmış, sahibkarlığın bazar infrastruktur obyektləri ilə təminatının istər xidmətlər, istərsə də regional baxımdan əhatə dairəsi genişlənmişdir.

Bununla yanaşı, lisenziyalaşdırma sisteminin sadələşdirilməsi barədə qərar qəbul edilmişdir. Belə ki, ölkədə mövcud olan lisenziyalaşdırma sistemi köklü surətdə dəyişmiş, lisenziyalaşdırılan fəaliyyət növlərinin sayı 240-dan 30 endirilmiş, lisenziyanın müddəti 2 ildən 5 ilə qədər uzadılmışdır. Hazırda hüquqi şəxslərin dövlət qeydiyyatına alınması prosedurları da xeyli sadələşdirilmişdir.

Prezident İlham Əliyev cari ilin oktyabr ayında sahibkarlıq fəaliyyətinin "Bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən, sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə vahid dövlət qeydiyyat orqanı Vergilər Nazirliyi müəyyən edilmişdir. Bu prinsip 2008-ci ildən etibarən tətbiq olunacaqdır.

Ölkədə iqtisadiyyatın sabit və davamlı inkişafının təmin edilməsində 1999-cu ilin sonunda yaradılmış Neft Fondunun mühüm rolu olmuşdur. Fondun fəlsəfəsinin əsasını Azərbaycanın təbii sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsi təşkil edir. Neft Fondunun qarşısında qoyulan əsas vəzifə Azərbaycanın bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz sazişlərinin həyata keçirilməsindən və Neft Fondunun öz fəaliyyətindən əldə olunan vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdir. Bundan başqa, Neft Fondunun qarşısında ölkə iqtisadiyyatını artan xarici valyuta daxilolmalarının mümkün mənfi təsirlərindən qorumaq, makroiqtisadi tarazlığı gözləmək məqsədləri və maliyyə intizamına xələl gətirməmək öhdəliyi durur. Fondun valyuta vəsaiti makroiqtisadi sabitliyin qorunub saxlanması şərtilə xüsusi ümummilli əhəmiyyət kəsb edən sosial və infrastruktur yönümlü layihələr üçün istifadə olunur.

Qeyd etmək lazımdır ki, 2002-ci ildə dövlətin iqtisadi siyasətinə dəstək vermək, qeyri-neft sektorunda sahibkarlığı inkişaf etdirmək məqsədilə İqtisadi İnkişaf Nazirliyinin tərkibində Sahibkarlığa Kömək Milli Fondu yaradılmışdır. Fond ölkədə sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərə maliyyə dəstəyi verir. Bundan başqa, Fond investisiya layihələrinin işlənib hazırlanmasına məsləhətlər verir, metodiki kömək göstərir və yeni məhsul növlərinin istehsalı layihələrinin işlənməsinə yardım edir.

2006-cı ildə sahibkarlığın inkişafının dəstəklənməsi sahəsində həyata keçirilən dövlət siyasətini vahid mərkəzdən tənzimləmək, respublikanın investisiya cəlbediciliyinin daha da artırılmasını təmin etmək məqsədilə Dövlət İnvestisiya Şirkəti yaradılmışdır. Şirkətin başlıca vəzifəsi ölkə iqtisadiyyatına investisiyaların təşviqini təmin etmək, bu sahədə mövcud problemlərin aradan qaldırılmasına çalışmaqdır.

Ölkədə sahibkarlığın inkişafının dəstəklənməsi sahəsində görülən tədbirlərə misal olaraq, ümumi dövriyyənin 4%-i həcmində tutulan sadələşdirilmiş verginin (rayonlarda 2%) tətbiqini, kənd təsərrüfatı məhsulları istehsal edən hüquqi şəxs və sahibkarların 01.01.2009-cu il tarixədək torpaq vergisi istisna olmaqla digər vergiləri ödəməkdən azad edilməsini və s. göstərmək olar.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısını artırmaq, bu sahədə mövcud problemləri vaxtaşırı təhlil edərək müvafiq tədbirlər görülməsini təmin etmək, işgüzar mühitin yaxşılaşmasına və sahibkarlığın inkişafına kömək etmək məqsədi ilə 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurası yaradailmışdır. Şura sahibkarlığın inkişafı sahəsində məsələləri müzakirə edir və Azərbaycan Respublikasının Prezidentinə təqdim etmək üçün müvafiq təkliflər hazırlayır, sahibkarlıq fəaliyyətini tənzimləyən normativ hüquqi aktları vaxtaşırı təhlil edir, sahibkarlığa dövlət qayğısının artırılması, o cümlədən maliyyə təminatı, sahibkarlığın inkişafına mane olan problemlərin operativ həlli, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilə hallarının aradan qaldırılması, sahibkarlıq subyektləri arasında kooperasiya əlaqələrinin inkişafının stimullaşdırılmasına dair və sahibkarlıq subyektləri üçün kadr hazırlığı sisteminin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlayır, sahibkarlıqda müasir informasiya texnologiyalarının tətbiqinin və sahibkarların beynəlxalq işgüzar əlaqələrinin genişləndirilməsinə kömək edir.

Yerli istehsalın inkişafı ilə ölkənin ixrac qabiliyyətinin artırılması və bu sahədə xarici investisiyaların cəlb edilməsi istiqamətində müsbət irəliləyiş əldə edilmişdir. Ölkə iqtisadiyyatının tarazlı inkişafına xidmət etmək, yoxsulluğun

azaldılması strategiyası çərçivəsində regionlarda yeni iş yerlərinin yaradılması üçün investisiyaların cəlb edilməsini həvəsləndirmək məqsədilə 2003-cü ildə Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) yaradılmışdır. Fond investorlar, yerli istehsalçılar və hökumət arasında körpü rolunu oynamaqla dövlət-özəl sektor dialoqunda əhəmiyyətli işlər görür. AZPROMO xarici investorlara öz investisiya layihələrini həyata keçirmək üçün sahələrin müəyyənləşdirilməsində, yerli bürokratiya ilə mübarizə aparmaqda və onların Azərbaycana gəlməsini asanlaşdırmaqda yardım edir.

Ötən dövrdə dövlət-sahibkar münasibətləri inkişaf etdirilmiş, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Sahibkarların hüquqlarının müdafiəsinin işlək mexanizmi yaradılmış, onların tətbiqi nəticəsində müdaxilə halları azalmışdır. Sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi və işgüzar əlaqələrinin inkişafı istiqamətində mütəmadi tədbirlər həyata keçirilməkdədir.

Ölkədə kiçik və orta sahibkarlığın inkişafının dəstəklənməsində hökumətin həyata keçirdiyi antiinhisar siyasəti mühüm rol oynayır. Azərbaycan Respublikasında antiinhisar siyasəti orqanı olan İqtisadi İnkişaf Nazirliyi yanında Antiinhisar Dövlət Xidməti ölkədə inhisarların fəaliyyətinin tənzimlənməsi və rəqabətin qorunması funksiyalarını yerinə yetirir.

Görülən tədbirlər nəticəsində sahibkarların problemlərinin həlli sahəsində mühüm irəliləyişlər əldə edilsə də bir sıra problemlər qalmaqdadır. Bunlara inhisarçılıq, korrupsiya və bürokratiya, sahibkarların məhkəmə müdafiəsində boşluqların mövcudluğu, biznes informasiya qıtlığı, bazar infrastrukturlarının fəaliyyətinin zəifliyi, peşəkar kadrların çatışmazlığı kimi problemlər aid edilə bilər. Problemlərin həlli istiqamətində tədbirlərin həyata keçirilməsi davam etdirilməkdədir.

**Hörmətli görüş iştirakçıları!**

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan arasında iqtisadi, siyasi, sosial və mədəni sahələrdə möhkəm əlaqələr mövcuddur. İki ölkə arasında münasibətlər sürətlə inkişaf edir və bunun üçün ölkələrimizin rəhbərliyi tərəfindən lazımi siyasi dəstək də mövcuddur. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin sözləri ilə desək: “Biz istəyirik ki, türk dünyası bir olsun. Birlik daha da möhkəm olsun. Bizi birləşdirən əlaqələr çoxşaxəli olsun və bütünlükdə türk dünyası dünya üçün çox önəmli amilə çevrilsin. Bunu etmək üçün bütün əsaslar var.”

İqtisadiyyata yönəldilən xarici investisiyalar və xarici ticarət sahəsində Türkiyə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Türkiyənin iş adamları 2006-cı ilədək Azərbaycanın qeyri-neft sektoruna 2 milyard ABD-dən çox investisiya yönəltmişdir. Hər iki ölkənin rəhbərliyi ticarət dövriyyəsini 1 milyard dollara çatdırmağı və daha da artırmağı qarşıya məqsəd qoymuşdur.

Təəssüflə qeyd etmək istəyirəm ki, son dövrlərin hadisələri Türk kapitalının Azərbaycana gəlməsinin gecikdiyini göstərir. Türkiyə və Azərbaycan arasındakı iqtisadi əlaqələrin inkişaf tempi Azərbaycanın ümumi iqtisadi inkişaf tempindən, o cümlədən xarici ticarətinin artım tempindən geri qalır. Ölkələrimiz arasındakı investisiya faizi son 5 ildə ciddi şəkildə azalmışdır. Xarici kapital üçün açıq olan Azərbaycanın qeyri-neft sektoru Rusiya, Çin, Cənubi Koreya kimi ölkələrin kapitalı tərəfindən artıq zəbt edilməkdədir. Türk iş adamlarının fəallığının artırılmasına böyük ehtiyac duyulur və bu sahədə biz iş adamlarının öhdəsinə mühüm vəzifələr düşür.

Çıxışımın sonunda bir daha vurğulamaq istəyirəm ki, Azərbaycan Türkiyə İş Adamları Birliyi Türkiyə ilə Azərbaycan arasında iqtisadi münasibətlərin bundan sonra daha da gücləndirilməsinə və iqtisadiyyatın bütün sahələrində iş adamlarının əməkdaşlığının inkişaf etdirilməsinə öz töfhəsini verməyə daim hazırdır.

**Diqqətinizə görə sağ olun.**